# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**"Gənc Alim və Tədqiqatçıların 7-ci**
**qrant müsabiqəsi"nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 3-cü mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Qərbi Azərbaycanın mədəni-tarixi resurslarının turizmin inkişafında rolu**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nəzərova Gülnar Fərrux qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/09/2-M-09**
Müqavilənin imzalanma tarixi: **12 fevral 2024-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2024-cü il - 01 sentyabr 2025-ci il**
*Layihənin **III mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *Məlum məsələdir ki, tarix boyunca ölkələr arası və ölkə daxili baş verən silahlı münaqişələr dövlətlərə maddi və mənəvi zərər yetirmişdir. Belə ki, mədəni irsin qorunması məsələsi dünyanın aktual problemlərindən biridir ki, beynəlxalq təşkilat olan YUNESKO-nun fəaliyyətinin əsas priotetidir. Bu kontekstdə Silahlı Münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında Konvensiya və onun iki Protokolu (1954 və 1999) kimi qəbul edilmiş qanunlar çox əhəmiyyətlidir. Haaqa Konvensiyası (1954) tarixi münaqişələrin qarşısının alınması və abidələrin qorunması üzrə əsas beynəlxalq sənəddir. Tarixi-memarlıq abidəsi, təsviri sənət əsəri, arxeoloji sahə, əlyazma, bədii, tarixi və ya arxeoloji əhəmiyyət kəsb edən obyekt, elmi kolleksiya və bu kimi digər mədəni resursların mühafizəsi Haaqa Konvensiyasının (1954) əsas vəzifələrindəndir.*<br>*Azərbaycanın qədim və məşhur mədəniyyət tarixi var. Həmçinin, Qərbi Azərbaycan bölgəsi də çox qədim tarixi və mədəni irsə malikdir. Məlumdur ki, bu Qərbi Azərbaycanın tarixi və mədəni irsinin öyrənilməsi, onun inkişafına təsir edən müsbət yaxud mənfi amillərin araşdırılması və mövcud vəziyyətinin tədqiq edilməsi məsələsi gündəmin ən önəmli məsələləri sırasına daxildir. Tədqiqatlar göstərir ki, bu gün regionda irs ehtiyatlarının hazırkı vəziyyəti çox dəyişmişdir. Müxtəlif dövrlərdə Qərbi Azərbaycan ərazisində baş vermiş hərbi münaqişə, işğal, təbii fəlakət və s. kimi amillər bölgədəki maddi və qeyri-maddi mədəni irsin yox olmasına və ya dəyişməsinə səbəb olmuşdur. Bu amillər arasında ən mühümü isə ermənilərin mədəni irsimizi işğal etməsi və mənimsənilməsi siyasəti olmuşdur. Bəzi resursların adları və funksiyaları dəyişmişdir. Məhz layihənin üçüncü mərhələsinin məqsəd və vəzifələrini aşağıdakı kimi qeyd etmək olar:*<br>♣ *mədəni-tarixi resurslara mənfi təsir göstərən və yoxa çıxmasına səbəb olan amilləri araşdırmaq;*<br>♣ *ilkin tarixi dövrlərdən etibarən baş vermiş hərbi əməliyyatlar zəminində resurslara göstərilən* |

*münasibəti aşkar etmək;*

- *hərbi kontekstdə və ondan sonrakı dövrlərdə resurslar üzərində aparılmış proseslərə nəzər yetirərək bu problem çərçivəsində resursların dəyər mexanizmini tədqiq etmək.*

*Layihənin bu hissəsində əsas tədqiqat obyekti Qərbi Azərbaycanın maddi və mənəvi irs nümunələri, predmeti isə həmin irs nümunələrinin təsir edən amillər nəticəsində onların hazırkı vəziyyətinin dünya sistemində araşdırılmasıdır.*

*Tədqiqat zamanı mədəni-tarixi irs nümunələrini iki hissəyə bölərək – maddi və qeyri maddi mədəni irs nümunələri olaraq araşdırma aparılmışdır. Nümunələr çəkilərək layihənin bu hissəsinin əsas məqsəd və vəzifələrini yerinə yetirilmişdir.*

*Elmi və ədəbi mənbələr göstərir ki, müharibələr tarix boyu baş vermişdir. Hərbi münaqişələrdən əziyyət çəkmiş dünya regionlarından biri də Qərbi Azərbaycandır ki, məhz müharibələr öz fəsadlarını ərazidə yerləşmiş abidələrə də göstərmişdir. Qərbi Azərbaycanın tarixi maddi mədəniyyət nümunələri hazırda fərqli vəziyyətdədirlər. Belə ki, bölgədə müxtəlif müdafiə obyektləri, dini abidələr, komplekslər və s. mövcud olsa da, müharibələr nəticəsində onların bir qismi dağıdılıb, bir qismi isə xarabalığa çevrilib. Abidələrin çox hissəsi hərbi əməliyyatların qurbanı olmuş, bəziləri ilə təbiətin yaratdığı fəlakət nəticəsində dağılmışdır. Layihənin bu hissəsində həmin hadisələrdən nümunələr təqdim edirik.*

*Hələ erkən zamanlardan Qərbi Azərbaycanın bölgəsində hərbi münaqişələrin əsas hədəflərindən biri olmuşdur. Belə ki, qədim abidə hesab olunan Teyşebaini qalası e.ə.VIII əsrin ortasına aiddir ki, hələ e.ə. VI əsrin başlanğıcında Sak, Kimmer və başqa tayfalarla müharibə ərəfəsində dağıdılmışdır.*

*IV əsrdə aid edilən Gərnibasar mahalının Qəmərli rayonunun Dvin kəndinin xarabalıqlarında saray və məbəd qalıqları tapılmışdır. Bu ərazi hələ VI əsrdə farslar tərəfindən dağıdılmış, XIII əsrdə isə monqol-tatar hücumları ilə tamamilə yerlə-yeksan olmuşdur. Bütpərəst məbədi hesab olunan Gərni məbədi yeni dinlərin meydana gəlməsi ilə müəyyən dağıntılara məruz qalsa da, XI yüzillikdə Hülaku xanın təşəbbüsü ilə bərpa olunmuşdu. Ancaq XV əsrdə məbəd zəlzələ nəticəsində dağılmışdır.*

*XIX əsrin 20-ci illərində Rusiya-İran müharibəsi zamanı yenidən dağıntıya məruz qalmış və xarabalığa çevrilmişdir. 1969-1974-cü illərdə isə yenidən bərpa edilmişdir. XIX əsrin əvvəllərində rusların hücum siyasəti nəticəsində əziyyət çəkən abidələrə misal olaraq, İrəvan qalasını, Sərdarabad qalasını, Abbas Mirzə Məscidini və başqalarını göstərmək olar. İrəvan qalası isə 1930-cü tamamilə dağılmışdır. Abbas Mirzə Məscidi 2008-ci ildə isə tamamilə sökülmüşdür.*

*Qərbi Azərbaycan uzun müddət ermənilərin işğalçı siyasətinə məruz qalmışdır ki, bu da onun taleyinin dəyişməsində çox vacib nüans olmuşdur. Hücum nəticəsində bölgə həm maddi, həm də mənəvi aspektdən çox zərər çəkmişdir. Minlərlə yerli əhali insan həlak olmuş, itkin düşmüş və ərazi bütövlükdə darmadağın edilmişdir. Bununla yanaşı, mədəni irs nümunələri də yandırılmış, qarət edilmiş və dağıdılmışdır: Qafan qalası, Sərdar sarayı, Şah Abbas məscidi, Ağbulaq kənd məscidi, Ağkilsə kənd məscidi, Hacı Novruzəli məscidi, Arçut kənd məscidi, Dəmirbulaq məscidi, Körpübulaq məscidi, Qaraçanta kənd məscidi, Qızılbulaq kənd məscidi, Şıxlar kənd məscidi, Urud kənd məscidi, Cümə məscidi, Vəliuşağı kənd məscidi, Ərəfsə kənd məscidi, Tağlı məscid, Oxdar kənd məscidi, Mir Davud məqbərəsi, Pircavidan məqbərəsi, Seyid Əhməd məqbərəsi, Ağaməmməd Məhəmməd oğlunun ocağı, Ağadədə ocağı, Baba Hacı ocağı, Bala Seyidin ocağı, Əbdül ata ocağı, Düldül ocağı, Məşədi Mir Yaqub ağa ocağı, Qara Pirim ocağı, Qoşa-pir ocağı, Xəlifə Şahbaz ocağı, Miyan Bütün ocağı, Mir Qafar ocağı, Mir İsmayıl ağa ocağı, Pirəl Mürsəl ocağı, Pir Eyvaz ocağı, Seyid Muxtar ocağı, Seyid Rəhim ocağı, Seyid Mahmud ocağı, Kərbəlayı Həsənalı Şaloğlu türbəsi, Miryaqub Ağa türbəsi, İyis piri, Zeyvə piri, Yuxarı Kilsə kəndində alban məbədi, Xosrov kəndində alban məbədi, Zəhmət kənd mədrəsəsi, Siznək kəndində Oğuz qəbri ziyarətgahı, Ziya Baba ziyarətgahı, Ağbulaq qəbirüstü abidələri, Böyük Mirzə kəndində Oğuz qəbiristanlığında qəbirüstü abidələri, Aşağı Şorca qəbirüstü abidələri, Çaykənd Oğuz qəbirləri, Əhməd ibn Qasımın qəbirüstü daşı, Xalisa kənd qəbirüstü abidələri, İrəvan qəbirüstü abidələri, Kiçik Mərzə (Bala Mərzə) kəndində Oğuz qəbiristanlığında qəbirüstü abidələri, Urud qəbirüstü abidələri, Nərimanlı kəndində Alban sinə daşı abidəsi, Cil*

*kənd karvansarası, Əfşar karvansarası, Qarabulaq karvansarası, Culfa karvansarası, Hacı Əli karvansarası, Sulu karvansarası, Xan körpüsü, Hacalılar günbəzi, Kəklik Abbas qızının günbəzi, Molla Əli Bayram oğlunun günbəzi, Kərbəlayı Yusifli günbəzi, Kosanlı və Paskili qəbiristanlıqlarında yerləşən qoç heykəlləri, Şidli qəbirüstü heykəlləri, Şidli daşüstü təsvirləri və s.*

*Dəhşətli hadisələrdən biri də ermənilər işğal edərkən 1918-ci ildə şəhərdə məskunlaşmış müsəlman əhalini dini obyekt hesab olunan Sərdar məscidin içərisinə salaraq yandırmışlar.*

*Bu cür işlərin aparılması region əhalisinin faciəvi şəkildə qətli ilə yanaşı dini-mənəvi görüşünə də zərər yetirir.*

*Yuxarıda qeyd etdiyimiz kimi, memarlıq nümunələri yanaşı, Qərbi Azərbaycanın dekorativ-tətbiqi sənət nümunələri də erməni işğalından xeyli zərər çəkmişdir. 1971-ci ildə aşıq sənətinin başlıca nümayəndəsi olmuş Aşıq Ələsgərin 150 illik yubileyi şərəfinə Ağkilsə kənd qəbiristanlığında qəbri üstündə büstü ucaldılmışdır. Ancaq 1988-ci ildə kəndə hücum edən ermənilər Aşıq Ələsgərin qəbrini və qəbirüstü abidəsini dağıtmışdılar. Digər tərəfdən isə, 2021-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ustad sənətkar Aşıq Ələsgərin sənət sahəsini yüksək qiymətləndirərək, 200 illik yubileyinə həsr olunmuş tədbirlər planına hazırlanması üçün sərəncam vermişdi. Bununla da, Azərbaycan Respublikası beynəlxalq aləmə mədəniyyətinə və sənətkarlarına xüsusi dəyər verdiyini və onu hər şeyə rağmən mühafizə etdiyini bir daha göstərmişdir.*

*Tarixi münaqişələrlə yanaşı, təbiət hadisələri də abidələrin dağılmasına şərait yaradır. Qərbi Azərbaycanda da bu cür abidələr heç də az deyil. Məsələn, Göy mələklər məbədi, Şah İsmayıl məscidi, İrəvan qalası, Gərni məbədi, Vağudi məbədi, Talın məbədi kimi abidələr zəlzələ nəticəsində dağıntıya məruz qalmışdır.*

*Yuxarıdakı faktiki məlumatlar göstərir ki, region müxtəlif dövlətlərin əsas münaqişə mərkəzi olsa da, ən ağır zərbəni erməni terrorçuları tərəfindən almışdır. Abidələrin bəziləri dağıdılmış, qarət edilmiş, tamamilə sökülmüş, xarabalığa çevrilmiş, ermənilərin yaşayış yerinə çevrilmiş, kilsə kimi istifadə edilmişdir. Məhz bunların hamısı Qərbi Azərbaycan kulturoloji irsinin böhrana doğru irəliləməsinə səbəb olmuşdur. Bununla yanaşı, təbii fəlakətlər də abidələrin dağılmasına səbəb olan əsas amillərdir. Məhz bu səbəbdən, onların qorunması aktual mövzudur.*

*Araşdırmalardan məlum olur ki, Qərbi Azərbaycanda bir çox abidələrin və yaşayış məntəqələrinin adları dəyişdirilmiş, öz kulturoloji vəzifəsindən kənar funksiyalarda istifadə edilmiş, bir sözlə, mövcud vəziyyəti dəyişmişdir. Burada əsas məqsəd Azərbaycan tarixi və mədəni irsinin məhvinə yol açmaqdır. Məhz bu prosesə hələ Sovet illərindən, xüsusən də 1988-ci ildə azərbaycanlıların deportasiyadan sonra daha geniş vüsət almışdır. Tədqiqatlar göstərmişdir ki, təqribən 3500-dən çox tarixi və mədəniyyət abidələri, 400-ə yaxın məscid, 500-dən artıq qəbiristanlıq məhvə məruz qalmışdır. Faktiki məlumatlar isbat edir ki, Qərbi Azərbaycanda yerləşən tarixi və mədəni abidə, rayon və bu kimi bir çox yerlərin adları dəyişmişdir. Bu toponimləri ermənilər müxtəlif prinsiplərə görə dəyişdirmişlər:*

- *Sovet ideologiyasını təbliğatına əsaslandırmaq;*
- *bolşevik inqilabı qəhrəmanlarına adına həsr etmək;*
- *ermənilərin tarixi şəxsiyyətlərin adlarını vermək;*
- *hərfi tərcümə etmək;*
- *adlardakı "böyük", "kiçik", "yuxarı", "aşağı", "kənd" kimi sözləri erməniləşdirmək;*
- *erməni tələffüzünə uyğunlaşdırmaq və b.*

*Buna əsasən dəyişən tarixi və mədəni abidələrinin adlarına aşağıdakıları göstərmək olar:*

- *Əmir Səad məqbərəsi - Türkmən məqbərəsi;*
- *Göy məscid - əvvəlcə tarix muzeyi, indi isə Fars məscidi;*
- *Göy mələklər məbədi - Zvartnos;*
- *Vağudi məbədi - Vorotnavank kilsəsi;*
- *Keçarus məbədi - erməni kilsəsi;*
- *Şükürbəyli məscid - rus kilsəsi;*
- *Talın qalası - Kirants-vank;*

- *Amağu məbədi  - ilkin adı Anabat, sonra isə  Noravəng;*
- *Erdəpin monastır kompleksi - Yeğeqis;*
- *Qarakilsə məbədi - erməni qriqorian kilsəsi;*
- *Qarqavəng məbədi - Zoravar;*
- *Camışlı kəndində türbə - yezid abidəsi və s.*

*Bir çox abidələrə ermənilər dəyişiklər etmiş, mövcud elementlərini silmiş, öz əlavələrini etmiş, mənimsənilmiş, onların fəaliyyətini erməniləşdirilmiş və ya hazırda yaşayış yeri kimi istifadə edilir: Cücəvəng qalası, Tovuzqala qalası, Qələndər qalası, Loru qalası, Xanavəng kilsəsi, Xorakert kilsəsi, Qırmızıvəng kilsəsi, Sənain alban kilsəsi, Gələsən-görəsən alban kilsəsi, Kəsəmən kəndində alban kilsəsi, Ağkilsə kəndində alban kilsəsi, Talış alban məbədi, Beyburd kəndində alban məbədi, Şəhərcik kəndində alban kilsəsi, Dövrus kəndində alban kilsəsi, Daşkənd kəndində alban kilsəsi – I, Daşkənd kəndində alban kilsəsi – II, Açağu kəndində kilsə, Teğər monastırı, Xorvirab monastırı, Saqmasavəng məbəd kompleksi, Mağaravəng məbəd kompleksi, Ağbat alban monastr kompleksi, Müqəddəs Ripsime məbədi, Qayana məbədi Üçkilsə, Heydərbəy məbədi, Sisavəng məbədi, Ağarçin məbədi, Talın məbədi, Qamsarakan məbədi, Aysəsi məbədi, Tatev məbədi, Səfiyyə məbədi, Saçlı xanım məbədi, Abduləsər ocağı, Seyid Ağbal ağa ocağı, Seyid ocağı, Tişneyni piri, Ağnatun kəndində türbə, Kotanlı kəndində alban türbəsi, Talış kəndində türbə, Bel daşı ziyarətgahı, Novruz oğlunun zağası, Taxta körpü çayı üzərində daş körpü, Təkbarmaq çayı üzərində daş körpü, Ağudi kəndində qoç fiqurlu məzar daşı, Böyük Mirzə alban abidəsi, Alban qəbirüstü abidələri, Aşağı Qaranlıq qəbirüstü abidəsi, Qabaxlı kənd qəbirüstü abidələri, Cücəvəng qəbirüstü abidəsi, Qarakilsə qəbirüstü abidəsi, Yeni Çölməkçidə qəbirüstü qoçdaşı abidəsi, V-VI əsrə aid qəbirüstü alban heykəlləri, Zəngilər kəndində qəbirüstü heykəllər, Sətənağac xaçdaları, Göyçə gölünün sahilindəki türk kurqanları və s.*

*Aydın məsələdir ki, hər bir mədəni abidə öz funksiyasını yerinə yetirir və kulturoloji cəhətdən ölkənin inkişafına şərait yaradır. Buna baxmayaraq, müəyyən zamanlarda və müxtəlif səbəblərdən abidələr əsas vəzifələrindən kənar funksiyalarda istifadə edilir. Qərbi Azərbaycanda da bu qəbildən abidələr çoxluq təşkil edir. Alman səyyahı Avqust Haksthauzen XIX əsrin 40-cı illərində şəhər barədə məlumat verərək bildirmişdir ki, qaladakı Rəcəb Paşa məscidi rus-yunan kilsəsi, Sərdar məscidi isə silah anbarı kimi istifadəyə verilmişdir. Rəcəb Paşa məscidinin islam dini dekorlarını sökülürək xaç və kilsə zəngi əlavə edilib rus pravoslav kilsəsinə, sonra isə xristian məbədi formasına çevrilmişdir. 1930-cu illərdə kilsə məhv edilmişdir. XX əsrin başlanğıcında isə Sərdar məscidində Türkiyədən köçən erməni qaçqınları yaşamağa başlamışdır. Sovet Ermənistanı zamanında Sərdar məscidi sökülərək əvəzində yaşayış evləri inşa edilmişdir. Digər bir yaşayış evi kimi fəaliyyət göstərilən abidə İrəvan şəhərində Tumanyan küçəsindəki mədrəsədir. Həmçinin, mədrəsənin məscidi sökülmüşdür.*

*Hazırda mehmanxana olan abidələr də vardır ki, onlara Zal xan məscidi və Gürcü karvansarasını göstərmək olar. Zal xan məscidinin böyük zalı hissəsində "Yerevan" hoteli tikilmişdir. XVIII-XIX əsrlərdə İrəvanda inşa edilmiş Gürcü karvansarayının yerində isə Sevan hoteli inşa edilmişdir.*

*Son araşdırmalardan məlum olur ki, son dövrlərdə erməni separatçılar Azərbaycanın maddi irs nümunələri ilə yanaşı mənəvi mədəniyyətini də mənimsəməyə çalışırlar. Bunlara folklor, mətbəx kimi mədəniyyət sahələri daxil etmək olar. Azərbaycan xalq mahnılarının mətnləri və rəqs melodiyalarının adları dəyişdirilmiş, xalq musiqimizin melodik məzmununa başqa intonasiyalar əlavə edilmişdir. Rəqslərin də həmçinin, adları dəyişdirilmiş, onlara yeni xoreoqrafik quruluş verilmişdir. Bunlara "Sarı gəlin" mahnısını,  Yallı", "Uzundərə", "Ceyranı", "Şalaxo" kimi  rəqsləri aid etmək olar.*

*XX əsrdə Ermənistan SSR Nazirlər Kabineti və Ermənistan SSR Elmlər Akademiyası Azərbaycan mətbəxinin özəlləşdirilməsi prosesində geniş iş aparmışdılar. Təşəbbüslər nəticəsində "Armyanskaya kulinariya" (1960) kitabı dərc edilmişdir və Azərbaycan mətbəxinin mənimsənilməsindəki ilkin mərhələi başa çatmışdır. Ümumiyyətlə, erməni mətbəxi adı ilə verilən mədəniyyət Göyçə, Zəngəzur kimi regionlara məxsusdur. Həmçinin ermənilər Azərbaycan mətbəx mədəniyyətinin dolma və lavaş kimi müxtəlif nemətlərini mənimsəməyə çalışırlar.*

| | |
|---|---|
| | *Belə ki, Qərbi Azərbaycan regionun qeyri-mədəni irs nümunələrinin mənimsənilməsi onun mədəniyyətinin yoxa çıxması üçün atılmış əsas işlərdən biridir. Məhz buna nəzərən Azərbaycan mədəniyyət siyasətində ərazinin mədəni irs nümunələrinin dünya miqyasında tanıdılması və öyrənilməsi üçün xüsusi addımlar atılır. İrs nümunələrinin YUNESKO-ya daxil edilməsi bu prosesdə böyük əhəmiyyət kəsb edir. Həmin siyahıya əsasən bəzi nümunələri təqdim edirik: Yallı, Dolma, Lavaş, Aşıq və s.*<br>*Yuxarıda sadalandığımız maddi mədəni-tarixi resurslar üzərində aparılmış əməliyyatlar, qeyri-maddi mədəni irs üzrə edilən iddialar və nümunələrin özünküləşdirilməsi prosesi yerli əhalinin mənəvi dünyagörüşünün zədələnməsi o cümlədən, Qərbi Azərbaycan irsinin izlərinin silinməsi məqsədinə əsaslanmışdır. Buna nəzərən layihənin üçüncü mərhələsinin əsasını Qərbi Azərbaycan bölgəsinin maddi və qeyri-maddi mədəni-tarixi irsinin hazırkı vəziyyətini dəyərləndirmək təşkil etmişdir.* |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *Layihənin III mərhələsinin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi təqribən 16 % bərabərdir.* |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | • *Layihənin üçüncü mərhələsində çağdaş dövrün ən aktual problemlərindən biri olan Qərbi Azərbaycanın zəngin mədəni irsinin mövcud vəziyyətini nümunələr əsasında öyrənilmiş və beynəxalq sistemdə kulturoloji təhlili aparılmışdır. Nəticədə məlum olmuşdur ki, bir çox nümunələr hərbi münaqişələrin və ermәni saxtakarlığının qurbanına çevrilmişdir;*<br>• *Dünya üzərində hər bir mədəni sərvətin mühafizə edilməsi və düzgün şəkildə gələcək nəsillərə ötürülməsi qlobal həcmli məsələlərdən biridir;*<br>• *Soyqırım və işğallar nəticəsində ermənilərin əlinə keçən sərvətimiz barədə hazırda Azərbaycan Respublikasında Qərbi Azərbaycan mədəni irsinin tanıdılması və araşdırılması üzrə müəyyən tədbirlər həyata keçirilir, elmi səviyyədə tədqiqatlar aparılır.* |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *Layihənin üçüncü mərhələsinin yerinə yetirilməsi zamanı elmi tədqiqatlara və internet resurslarına müraciət edilmişdir. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin hazırkı vəziyyətini araşdırılmış və kulturoloji nöqteyi-nəzərdən təhlilləri edilmişdir. Təhlil etmək, ümumiləşdirmək və komplektləşdirmək kimi metodlardan və elmi-statistik, sosio-mədəni yanaşmalarından istifadə edilmişdir.* |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | 1. *G.Nazarova. Cultural Analysis Of The Current Situation Of The Historical And Cultural Heritage Of Western Azerbaijan. RSIS International journal, November, 2024 (çapa göndərilmişdir)* |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *Layihənin üçüncü prosesində Qərbi Azərbaycan regionun mədəni-tarixi resurslarının hazırkı vəziyyətinə elmi ədəbiyyatların köməyi ilə nəzər salınmışdır. Zəngin mədəni-tarixi irsə malik olan bölgənin abidələrinin mövcud vəziyyəti heç də ürəkaçan deyil. Təbii ki, bunda ən böyük faktor erməni separatçılarının işğalçı və soyqırım məqsədli siyasəti olmuşdur.*<br>*Məhz aparılan araşdırmaya nəzərən ərazinin mədəni resurslarının daha geniş şəkildə tədqiq edilməsinə və dünya sferasında düzgün şəkildə tanıdılması üzrə aparılan işlərə davam etməyin məqsədə uyğun hesab edirik.* |

| | |
|---|---|
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *Olmayıb* |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *Yoxdur* |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *Olmayıb* |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *Olmayıb* |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *Yoxdur* |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *Olmayıb* |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *Olmayıb* |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *Yoxdur* |
| **15** | Sərgilərdə iştirak |
| | *Olmayıb* |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *Sanat və kültürel miras yönetimi - 24.11.2024 - onlayn kurs - Global Enstitü platforması, Türkiyə - 95/100 nəticə* |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *Yoxdur* |

**Layihə rəhbərinin imzası __________________ Nəzərova Gülnar Fərrux qızı**

**Tarix** ___________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.